BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2006

# FƏLSƏFƏ

## SOSİAL İDRAKDA HƏQİQƏT İLƏ DƏYƏRLƏRİN MÜNASİBƏTİNƏ DAİR

**Z.C.HACIYEV, İ.Ə.İSLAMOV**
***Baкı Dövlət Universiteti***

*Məqalə sosial idraкda həqiqət və dəyərlərin qarşılıqlı analizinə həsr olunmuşdur. Sosial idraкda həqiqət ilə dəyərlərin qarşılıqlı istiqamətləri və aspeкtləri açılır. Sosial idraк həqiqətlərdə dəyərliliк səpкisini gücləndirən mühüm bir səciyyəvi məqam, sonuncunun məzmununun demoкratiк cəmiyyətdə son dərəcə dinamiк əhəmiyyət кəsb etməsidir.*

İdraкın spesifiк növü olan sosial idraкda həqiqət ilə dəyərlərin münasibəti bir sıra özünəməxsusluqlar ilə səciyyələnir кi, onların təhlil edilib ümumiləşdirilməsi mühüm nəzəri və praкtiкi əhəmiyyətə maliкdir. Qeyd olunan problemin tədqiqi müasir dünyada gedən elmin qlobal miqyasda humanistləşməsi fonunda daha aкtual səslənir, çünкi sözügedən meyl sosial idraкla daha sıx bağlıdır və burada tam dolğunluğu ilə fəaliyyət göstərir. Sosial idraкın əsas spesifiкliyi ondadır кi, burada insan və cəmiyyətdə insanlar arasında qərarlaşan ictimai münasibətlər idraкın həm obyeкti və həm də subyeкti кimi çıxış edir. Sonuncu məqam idraкın insanın öz məni ilə bağlı tərəflərin araşdırılmasında daha qabarıq surətdə özünü göstərir. Bu halda sosial idraк ayrıca bir fərdin özünüdərк prosesini əhatə etməкlə məhdudlaşmır, həm də bütövlüкdə mövcud cəmiyyətin mənliк şüuru кimi çıxış edir. Sözügedən metodoloji prinsip sosial idraкda həqiqət ilə dəyərlərin qarşılıqlı münasibətlərinin öyrənilməsində mühüm əhəmiyyətə maliкdir.

Nəzərdə tutulmalıdır кi, sosial idraкın subyeкti olan insan ictimai münasibətlər sistemi ilə əhatə olunur, müəyyən etniк və ya sosial qrupun nümayəndəsi кimi çıxış edir. Bu birliк formaları onlara mənsub olan fərdlərin həyat fəaliyyətinin bütün tərəflərinə reqlamentləşdirici təsir göstərir, yəni onun işini və hərəкətlərini tənzim edən dəyərlər sistemi işləyib hazırlayır. Hər bir şəxsin sosial dərкedici fəaliyyəti məzmunca xeyli dərəcədə müxtəlif olan dəyərlər sistemi (buraya etiк və siyasi dəyərlər, estetiк dəyərlər, dünyagörüşü prinsipləri və sair daxildir) çərçivəsində baş verir. Bütövlüкdə bu dəyərlər sisteminə daxil olan tərəflər və ünsürlər qarşılıqlı təsir və vəhdətdə çıxış edərəк sosial idraк subyeкtinin dəyərlər oriyentasiyasını yaradır кi, sonuncuların həqiqət axtarışlarına təsir səviyyəsi idraкın heç bir növündə sosial idraкda olduğu səviyyədə güclü təsir gücünə maliк olmur. Məsələ burasındadır кi, həqiqətin daxili məzmununda dəyər və dəyərliliк məqamları кifayət qədər yüкsəк yer tutur. Əslində həqiqətin özü cəmiyyətdə mühüm sosial və mənəvi-psixoloji rol oynayan və həm sosial,

həm də şəxsi planda götürülən ən yüksək dəyərdir. Həqiqət dəyəri cəmiyyətdə böyük rol oynayır. Səciyyəvi cəhət həm də burasıdır ki, onun bu rolu və mövqeyi zaman keçdikcə daha da çoxalır (3, s. 460).

İdrakın başqa sahələrində olduğu kimi sosial idrakda həqiqət öz məzmunu etibarilə obyektin ifadə formasına görə subyektiv mənəvi reallıq kimi çıxış edir. Onda əhatə olunan informasiya özünün yüksək dərəcədə mötəbər və səhih olması ilə seçilir. Həqiqətin bu mahiyyət keyfiyyətinin özü məntiqi olaraq burada dəqiq bilik ilə yanaşı dəyərlilik səpkisinin də olmasını şərtləndirir, çünki insan və cəmiyyət haqqında olan informasiyanın həqiqiliyi, ölçülərinə həm də onun dəyərlilik dərəcəsi güclü təsir göstərən amil kimi çıxış edir. Sosial idrakda həqiqət axtarışları prosesində dəyərlərin rolunu araşdırarkən belə bir məqam da mütləq qeyd olunmalıdır. Söhbət burada idrakın digər növləri ilə müqayisədə dəyərlərin ikili təbiətinin daha qabarıq şəkildə özünü göstərməsindən gedir. Yəni bir tərəfdən sosial araşdırmaların nəticələrinin cəmiyyətin ümumi yüksəlişinə verə biləcəyi praktiki faydalılığı ifadə edən dəyərlər mühüm yer tutur. Digər tərəfdən konkret sosial obyektin öyrənilməsində əldə rəhbər tutulan dəyərlər seçimində yüksək mənəvi-etik dəyərlərin (humanizm, xeyirxahlıq, ədalət, vicdan və s.) rolu durmadan artır. Sosial idrakın başlıca məqsədi bütövlükdə cəmiyyətdə və onun ayrı-ayrı yarımsistemlərində gedən proseslərin mahiyyəti və inkişaf qanunauyğunluqları haqqında obyektiv elmi həqiqətləri aşkara çıxarmaqdır. Bu biliklər böyük insan qrupları və birliklərinin, habelə hər bir fərdin fəaliyyəti, məqsədi və mənafeləri ilə bilavasitə bağlıdır. Qeyd olunan keyfiyyət sosial idrakda həqiqət ilə dəyərlərin münasibətlərinə müəyyən unikallıq gətirir, ümumilikdə burada fəaliyyətin elmi həqiqilik meyarı ilə normativlik və dəyərlilik səpkisinin ayrılmaz vəhdətini şərtləndirir. Bunun nəticəsidir ki, sözügedən sahədə idrakın elmi həqiqiliyi ilə yanaşı məsuliyyətliliyi keyfiyyəti də ön plana çəkilir. Başqa sözlə deyilsə, sosial idrakda əldə olunmuş biliklərdə (həm də bu işlə məşğul olan subyektlərin hərəkətlərində) yol verilən və stimullaşdırılan dəyərlər, habelə arzuolunmayan və qadağan edilən dispozisiyalar digər idrak növləri ilə müqayisədə daha açıq və kəskin formada özünü göstərir. Burada fəaliyyət məhsullarının ümumi elmi standartlara nə dərəcədə uyğun olduğunu müəyyənləşdirməklə iş bitmir, sırf elmi həqiqət ilə yanaşı müəyyən normaları, dəyərləri, ideal və etalonları nəzərə almaq zəruri olur (2, s. 210).

Sosial idrak məzmununu əks etdirən həqiqətlərin mühüm bir spesifik xüsusiyyətini subyekt-obyekt münasibətlərinin son dərəcə yaxınlığı təşkil edir. İdrakın başqa növləri ilə müqayisədə burada sözügedən tərəflər daha möhkəm əlaqələrdə və hətta çulğalaşma vəziyyətində olur. Başqa sözlə deyilsə, sosial idrakda subyektivlilik keyfiyyətləri həqiqətin məxmununa çox güclü surətdə nüfuz edir. Bu fakt da burada dəyərlərin rolunun artmasına müsbət təsir göstərir, çünki sonuncular da subyekt-obyekt münasibətlərindən kənarda mövcud deyildir. Belə ki, öz mahiyyətinə görə dəyərlər subyektin sosial obyektlərə dəyərləndirici münasibəti, onların faydalılıq və dəyərlilik dərəcəsinin müəyyənləşdirilməsi deməkdir.

Həm də qeyd olunmalıdır ki, dəyərlilik qiymətləndirmə sosial idrakın zahiri, təsadüfi və müvəqqəti tərəfi kimi çıxış etmir, onun immanent daxili mahiyyətlərinin zəruri tərkib hissəsi və atributiv tərəfi kimi çıxış edir (4, s. 13). Deyilənlər sübut edir ki, müasir elmi fəlsəfi

ədəbiyyatda geniş yayılmış olan elmin etikası, həqiqət axtarışları ilə yanaşı onda humanist və xeyirxahlıq motivlərinə xüsusi diqqət yetirilməsi zərurəti sosial idrakda daha qabarıq surətdə çıxış edir. Məsələ burasındadır ki, ümumilikdə idraka xas olan elmilik meyarına verilən tələblərin bir çoxu (həqiqət axtarışlarının səmərəliliyini yüksəltmək, elmi müddəaların «oğurluğuna» və yalanlılığına yol verməmək, əldə olunmuş yeniliklərə onun müəllifinin şəxsi göstəricilərini deyil, həqiqilik meyarını əsas götürmək və s.) öz mahiyəti və məzmununa görə humanist və dəyərlilik xarakteri daşıyır. Qeyd olunan vəziyyət sosial idraka, xüsusilə də sosial aksioloji yönümə sürətləndirici təsir göstərir, həqiqət ilə xeyirxahlığın təmas nöqtələrini daha da çoxaldır. Həm də göstərilməlidir ki, bu, yalnız son dövrlərdə baş verən yenilik olmayıb, sosial-fəlsəfi irsdə uzun dövrü əhatə edən ənənəni əks etdirir. Lakin müasir dövrdə bu tərəflərin vəhdəti o dərəcədə möhkəmlənir ki, onlar bir-birindən ayrılmaz olmuşdur və həm elmi həqiqətlərin, həm də dəyərliliyin normal inkişafının zəruri şərtinə çevrilir. Müasir sosial idrakda həqiqət ilə dəyərlər o dərəcədə bir-birinə yaxınlaşır ki, onları ilk nəzərdə bir-birindən ayırmaq o qədər də asan olmur. Həmin tərəflərin sıx qovuşması bir tərəfdən, elmi həqiqətin öz daxili məzmununun təbiəti ilə (həqiqət sosial həyatda baş verən hadisə və proseslər haqqında adekvat və dəqiq informasiya verməklə həm də aid olduğu obyektin müsbət mənəvi səciyyəsinin açılması deməkdir), digər tərəfdən isə elmi fəaliyyətin tənzim olunmasında dəyərlərin rolunun durmadan artması ilə izah edilməlidir.

Fikrimizcə, sosial idrakda həqiqətlərin aşağıdakı tərəflərdə təzahür edən özünəməxsusluqları da burada dəyərlərin rolunun artmasına sürətləndirici təsir göstərir. Söhbət hər şeydən əvvəl idrakın sözügedən növündə idrak subyektinin dərk etmək istədyi sosial obyekt haqqında informasiya alma prosesinin spesifikliyindən gedir. Belə ki, sosial idrakda öyrənilən sahəyə dair informasiyanın əldə edilməsi və ümumilikdə həqiqət axtarışları subyektin malik olduğu və öz fəaliyyətində rəhbər tutduğu şəxsi dəyərlər sistemi və oriyentasiyanın güclü təsirinə məruz qalır. Sonuncuların konkret məzmunundan asılı olaraq burada həqiqət axtarışları prosesi əhəmiyyətli dərəcədə sürətlənə və ya ləngiyə bilir. Digər tərəfdən sosial idrakda əldə olunmuş həqiqətlərin interpretasiyası və xalqa çatdırılması da hansı dəyərlər sisteminin əldə rəhbər tutulmasından çox asılıdır. Belə ki, tədqiqatçının mənafelərinə obyektiv surətdə uyğun gələn (ümumilikdə ictimai tərəqqiyə müvafiq olan) dəyərlər əldə rəhbər tutulduqda təkcə elmi araşdırmalar deyil, həm də onların nəticələri qərəzsiz formada, yəni olduğu kimi izah edilir və kütləyə çatdırılır. Əks halda, geniş xalq kütlələrinin şüuru manipulya edilir, elmi həqiqətlər ya saxtalaşdırılır, ya da onların həqiqi məqsədləri pərdələnmiş halda təbliğ olunur. Sonuncu məqamın nə qədər təhlükəli olduğunu erməni millətçilərinin guya ermənilərin türklər tərəfindən geniş miqyaslı soyqırıma məruz qaldıqları haqqında illüziyaları beynəlxalq aləmdə yaymaq cəhdləri inandırıcı surətdə sübut edir.

Nəhayət, sosial idrakdakı həqiqətlərdə dəyərlilik səpkisini gücləndirən mühüm bir səciyyəvi məqamı sonuncunun məzmununun son dərəcə dinamik xarakter kəsb etməsidir. Məsələnin mahiyyəti bundadır ki, sosial həqiqətlər cəmiyyətdə gedən proseslərin daxili təbiətini açarkən onlara sabit və donuq tərzdə yanaşmır, onları daim inkişafda və dəyişilmədə götürür. Sosial həyata münasibətdə həqiqətlərin bu cür

geniş planlı anlamlı olması, onların proqnostik funksiyasını daha dolğun edir, yəni öyrənilən obyektdə gələcəkdə baş verə biləcək meyllərin əsas istiqamətlərini irəlicədən görmək imkanı verir. Nəticədə sosial idrakı fəaliyyətin real praktikanı qabaqcadan inikas etdirmək imkanları durmadan genişlənir. Bu qəbildən olan həqiqi biliklərin, həm də dəyərlilik səviyyələri yüksək olur, çünki onlar insanların təkcə bugünkü həyatını səmərəli təşkil etməyin yollarını və vasitələrini öyrətməklə məhdudlaşmır, həm də gələcəyə bu proyeksiya baxımından yanaşılmasını mümkün və zəruri edir (4, s. 284).

Qeyd etmək lazımdır ki, sosial idrakda həqiqətin əldə olunması prosesində dəyərlərin iştirakı ani və bəsit şəkildə baş vermir, bir sıra formaları əhatə edir. Bu münasibətdə dəyərlərin sosial idrakın həm başlanğıcında və həm də sonunda iştirak etdiyi xüsusi vurğulanmalıdır. İdrakın əvvəlində dəyərlərin rolu başlıca olaraq bunda təzahür edir ki, özünün spesifik emosional, intellektual və dəyərləndirici maraqları olan subyekt həmin göstəricilərə müvafiq olaraq öyrənəcəyi sosial obyekti müəyyənləşdirir, onu araşdırmağın ümumi şəraitini, konkret axtarışların prosedurunu, yollarını və vasitələrini dəqiqləşdirir. Bütün bunlar onun malik olduğu və əldə rəhbər tutduğu dəyərlər kompleksinin güclü təsiri altında baş verir. Bundan əlavə qeyd olunmalıdır ki, elmi yaradıcılıqda əldə rəhbər tutulacaq dəyərlərin seçimi də asan və rəvan olmur. Burada çox vaxt sosial subyektin malik olduğu şəxsi dəyərlər oriyentasiyası, mövcud sosial qrupların və partiyaların irəli sürdüyü dəyərlər sistemi ilə uyğun gəlməyə bilir (təkcə bu mənada yox ki, hər bir birlik forması öz nümayəndələrinə müəyyən dəyərlər sistemi diktə edir, həm də o mənada ki, hakim sosial qruplar öz dəyərlər sistemini ümumilikdə cəmiyyətin adından verməyə çalışır və bəzən də buna xeyli dərəcədə nail olurlar). Belə vəziyyətdə sosial idrak subyektində ümumi (sözün nisbi mənasında) və özünün şəxsi dəyərlərinin qarşılıqlı təsiri nəticəsində (birinci tərəfin üstün rol oynaması şərtilə) vahid dəyərlər seçimi və elmi həqiqətlər axtarışına dair bütövlükdə subyektiv mövqe formalaşır. Sonuncular onun öyrənmək istədiyi sosial prosesə dair informasiya seçiminə və toplanılmasına əhəmiyyətli dərəcədə təsir göstərir. Qeyd olunan proseslərdə dəyərlərin rolu demək olar ki, idrakın bütün növlərində müəyyən dərəcədə özünü göstərir. Lakin sosial idrakda, onun spesifikliyi üzündən bu təsir daha güclü olur. Bununla əlaqədar olaraq göstərilməlidir ki, sosial idrakın istənilən konkret istiqaməti üzrə həqiqət axtarışlarına girişərkən onları ümumhumanist dəyərlərə, yəni cəmiyyətin inkişafı üçün daha çox fayda verə biləcək dəyərlərə yönəltmək çox vacibdir (5, s. 19-20).

Sosial idrakda dəyərlərin rolu təkcə yuxarıda qeyd olunanlarla məhdudlaşmır, onlar həm də dərketmə prosesinin müvafiq mərhələsinin sonunda öz tənzimləyici funksiyasını yerinə yetirirlər. Belə ki, sosial idrakın hər bir konkret pilləsinin nəticəsi kimi yaranan yeni biliklər, bir tərəfdən aid olduğu sosial obyekt haqqında adekvat informasiya ehtiyatını zənginləşdirirsə, digər tərəfdən, yeni, daha yüksək səviyyəli sosial tədqiqatlar aparmaq üçün zəruri olan ümumi konseptual baxışlar sistemini formalaşdırır. Sonuncu özündə qnoseoloji baxımdan sübuta yetirilmiş və yaxud təkzib olunmuş biliklərlə yanaşı, həm də həmin an üçün qeyri-müəyyən xarakter daşıyan təsəvvürləri əhatə edir. Qiymətləndirmənin sözügedən hər üç növü bir-birilə sıx qarşılıqlı təsirdə və çox vaxt çulğalaşmış vəziyyətdə çıxış edir ki, bu da onların hər birində mənəvi dəyərlərin rolunun artmasını stimullaşdırır.

Sosial idrakda dərk etmə prosesi mürəkkəb xarakterə malik olub, iki əsas pillədən keçir – empirik və nəzəri. Birinci mərhələdə sosial obyektlərə dərkedici münasibət insanların praktiki fəaliyyəti ilə sıx əlaqədə çıxış edir, onun nəticələri adi şüurda, özü də daha çox həyat hikmətləri və təcrübi biliklər formasında ifadə olunur. Sosial idrakın ikinci, yüksək pilləsində isə dərketmə, sözün əsl mənasında götürülən abstrakt, müstəqil və ideal səviyyədə aparılan professional fəaliyyət kimi təzahür edir. Sonuncu pillədə sosial idrakın subyektiv öyrəndiyi cəmiyyət hadisəsinin və ya prosesinin mahiyyətini daha dərindən açmaq üçün müxtəlif anlayışlardan, abstraksiyalardan, hipotezlərdən və nəzəri sistemlərdən geniş istifadə edir. Göstərilənlər sosial idrakın qnoseoloji tərəfini əks etdirir, ona sosioloji münasibətdə yanaşdıqda isə, o, yüxarıda qeyd olunan bölgü ilə çox əlaqəli olan ictimai psixologiya və ictimai ideologiyaya ayrılır. sosial idrakın yuxarıda qeyd olunan hər iki pilləsində (əlbəttə hər birində müəyyən özünəməxsusluqla) həqiqət ilə yanaşı dəyərləndirici, aksioloji sepki çox mühüm yer tutur. Lakin dəyərlərin rolu baxımından bu bölgülərin eyni olduğunu iddia etmək sadəlövhlük olardı (xüsusilə də hər iki bölgünün yüksək pillələrinə münasibətdə). Belə ki, nəzəri şüurda həqiqət axtarışı prosesləri qnoseoloji tərəfin üstünlüyü şəraitində həyata keçirilir. Burada dəyərlər seçimi və oriyentasiyası o qədər də mühüm rol oynamır. Ondan fərqli olaraq ictimai ideologiya səviyyədə aksioloji tərəf güclü rol oynayır, çünki burada həqiqət axtarışları idrak subyektinin tələbat və mənafeləri ilə (habelə onları əks etdirən dəyərlər sistemi ilə) daha sıx bağlıdır. Bu təsadüfi olmayıb, ideoloji səviyyənin təyinatı və cəmiyyətdə yerinə yetirdiyi funksiyalar ilə izah olunur. Belə ki, ideoloji sistemlər başlıca olaraq müvafiq sosial birlik formalarının, böyük insan qruplarının fəaliyyətini (o cümlədən elmi biliklər əldə etməyə yönələn fəaliyyətini) tənzim edən dəyərlər sistemi işləyib hazırlamağa xidmət edir (əlbəttə bu fakt onlarda elmi həqiqətlərin tam istisna olunması demək deyildir).

Sosial idrakda həqiqət ilə dəyərlərin qarşılıqlı münasibətlərinin açılmasında «qiymətləndirmə» anlayışı müstəsna rol oynayır. Sonuncunun əsas mahiyyətini sosial həyat hadisələrini və onları əks etdirən bilikləri müqayisəetmə əsasında onlardan hansına nə dərəcədə üstünlük verilməsi, onların cəmiyyət və fərdi baxımdan əhəmiyyətliliyinin müəyyən edilməsi təşkil edir. Qiymətləndirmənin məzmunu dəyərlərdən ayrılmazdır, əslində bu proses subyekt tərəfindən hər hansı sosial hadisənin və ya prosesin faydalılıq, doğruluq, zərurilik keyfiyyətlərini ifadə edən mühakimələr irəli sürülməsi deməkdir (həm müsbət, həm də mənfi istiqamətdə). Qiymətləndirmə sosial idrakın bütün gedişi boyu bu və ya digər dərəcədə (lakin həmişə) iştirak edir.

Sosial idrakda həqiqət və dəyərlərin qarşılıqlı əlaqələrini araşdırarkın həm də nəzərdə tutulmalıdır ki, onlar arasındakı münasibətlər heç də həmişə vəhdət xarakterli olmur, çoxtərəfli və çoxistiqamətli məzmuna malik olur. Belə ki, idrakın sözügedən növündə elmi həqiqətləri ifadə edən müddəalar və mühakimələr, bütövlükdə təfəkkür üslubu subyektlərinin məqsəd və maraqlarının, güclü təsirinə məruz qalır. Bunun nəticəsində bəzən həqiqətlərin obyektiv məzmunu təhrif olunur, sosial-siyasi qiymətləndirmə üstün yer tutur, subyektiv emosional meyl güclü olur. Təbiidir ki, belə hallarda həqiqət özünün əsl mahiyyətindən (obyektiv bilik vermək) uzaqlaşır, şəxsi maraqların və dəyərlərin əsirinə çevrilir ki, bunu normal hesab etmək olmaz.

Sosial idrakda həqiqətin axtarışlarında müəyyən çətinliklərin

olması da (araşdırılan obyektlərin özünəməxsusluğu müvafiq informasiya əldə etməyin çətinliyi, mövcud quruluşun xarakteri, ideoloji və siyasi təzyiq və s.) da burada mənəvi dəyərlərin tənzimləyici təsirini zəruri edir. Əks halda qərəzsiz və hərtərəfli təhlil aparmaq qeyri-mümkün olur. Subyektlərin malik olduğu dəyərlər sistemi və dəyərlər oriyentasiyası sosial idrakın demək olar ki, bütün mərhələlərində özünü göstərir. Tədqiqat obyektinin seçilməsindən başlayaraq, müvafiq informasiyanın toplanılması, empirik və nəzəri metodların tətbiqi, digər prosedurlar və nəhayət əldə olunmuş elmi həqiqətlərin interpretasiyası və elan olunması onların güclü təsiri altında baş verir. Qeyd etmək lazımdır ki, sosial idrakda subyektiv mövqe və dəyərlər həqiqət ilə nə qədər təmasda olsa da, bu əlaqələr çox vaxt dolayı xarakter daşıyır, yəni birbaşa konkret həqiqi bilik ilə deyil, daha çox onun konseptual prinsipləri, metodologiyası və sistemi ilə bağlı olur. Bu haqlı olaraq göstərir ki, əgər obyektiv həqiqət subyektdən, sosial mənafelərdən asılı deyilsə və bu mənada dəyərlərə münasibətdə birinci rol oynayır, digər tərəfdən idrak subyektlərinin sosial oriyentasiyası və dəyərləri inkişaf etməkdə olan real bilik sisteminə münasibətdə, informasiyanın qiymətləndirilməsində və müvafiq mühakimələrin seçilməsində birincilik rolu oynayır (1, s. 299).

Həm də nəzərdə tutulmalıdır ki, həqiqətin başlıca göstəricisi olan adekvat məzmun idrak fəaliyyətdə nə qədər böyük yer tutsa da, yenə kifayət deyildir, çünki sonuncunun effektivliyini təkcə bir göstərici ilə ölçmək doğru olmazdı. Bu mənada sosial idrakın nəticələrinin həm də dəyərlər mövqeyindən mənalandırılması onu bir növ tamamlayır.

Qeyd etmək lazımdar ki, sosial idrakda həqiqət ilə dəyərlərin vəhdəti səviyyəsi bütün dövrlərdə eyni səviyyədə baş vermir. Bu mənada elmi həqiqətləri aşkar etmək üçün müstəqil və sərbəst elmi yaradıcılıq üçün şərait yarandığı indiki dövr xüsusilə önəmlidir. Belə mühitdə həqiqətlərin aksioloji səpkisi daha da güclənir və çoxplanlı xarakter alır. Bu öz ifadəsini aşağıdakı cəhətlərdə tapır. Əvvəla, demokratik cəmiyyət quruculuğu dövründə sosial subyektlərin bütün növlərində dəyər şüuru inkişaf edir, digər sosiomədəni amillərlə vəhdətdə çıxış edərək elmi həqiqətlərin aşkar olunmasını stimullaşdırır. Digər tərəfdən, sosial idrakın öz daxili məzmununda dəyərlər sistemi və dəyərlər oriyentasiyasının xüsusi çəkisi çoxdur. Nəhayət, bu da qeyd olunmalıdır ki, sosial idrakdakı dəyərlər obyektiv predmet bilikləri (fakt, qanun, hipotez, nəzəriyyə və s.) ilə effektiv operasional biliklərlə (elmi metodlar, tənzimləyici prinsiplər və s.) sıx bağlı olmaqla öz həqiqiliyi, düzgünlüyü və informativ keyfiyyətləri sayəsində bütövlükdə cəmiyyət üçün də dəyərlilik kəsb edir (6, s. 39).

Müasir dövrdə sosial həyatın dinamizminin yüksəldiyi, qloballaşma proseslərinin artdığı bir şəraitdə bu fikir daha aktual səslənir. Belə ki, indi sosial idrak subyektinin elmi həqiqətlər axtarışlarının yüksək səviyyədə uğur qazanması onun dünyagörüşündən, humanist dəyərlərə və əxlaqi normalara oriyentasiyasından çox asılıdır.

Deyilənlər çübut edir ki, sosial idrakda dəyərlilik səpkisi həqiqi biliklər əldə etməyə yönələn yaradıcılıq prosesinin ayrılmaz tərəfi və ünsürü kimi çıxış edir. Onların daxili vəhdətinə arxalanmadan ümumilikdə heç bir sosial fərdin dərkedici fəaliyyəti uğurla inkişaf edə bilməz.

**ƏDƏBİYYAT**

1. Алексеев П.В., Панин А.В. Философия. М., Проспект 1977.
2. Ильин В.В. Философия Ч.II.М., «Академический проект» 1999.
3. Стиркин А.Г. Философия. М., «Гардарики», 2000.
4. Фролов И.Т., Юдин Б.Г. Этика науки. М. «Мысль» 1986.
5. Ценностные аспекты науки и проблемы экологии. М., Политиздат, 1986.
6. Ценностные предпосылки в структуре научного познания М., «Мысль», 1990.

## О ВЗАИМООТНОШЕНИЙ ИСТИНЫ И ЦЕННОСТЕЙ В СОЦИАЛЬНОМ ПОЗНАНИИ

**З.Дж.ГАДЖИЕВ, И.А.ИСЛАМОВ**

**РЕЗЮМЕ**

Статья посвящена анализу взаимоотношений истины и ценностей в социальном познании. В ней раскрываются основные направления взаимодействия поисков истины и системы ценностей, как двух дополняющих друг друга аспектов постижения событий и процессов социальной жизни. Особое внимание уделяется показу их растущего единства в условиях демократизации общества.